

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 130 (23.292)

*16 iyul 2019-cu il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Nazirlər Kabinetində iyul ayının ilk 15 günü ərzində yeni qərarlar qəbul edilmişdir

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 2 iyul tarixli 85 nömrəli Qərarı ilə "Peşə hazırlığına cəlb olunan işsiz şəxsə verilən təqaüdün ödənilməsi Qaydası" təsdiq edilmişdir. Bu Qərara əsasən muxtar respublikada peşə hazırlığına cəlb olunduğu dövrdə işsiz şəxsə verilən təqaüdün ödənilməsi qaydaları müəyyən edilir.

Bundan başqa, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 6 sentyabr tarixli 90 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında elmi ekspedisiyaların təşkili və aparılması Qaydaları"nda dəyişiklik edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 iyul tarixli 92 nömrəli Qərarı ilə "Kənd təsərrüfatı məhsullarının istehsalçılarına buğda və çəltik səpininə və istifadə etdikləri yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımların, habelə hüquqi və fiziki şəxslər tərəfindən istehsalçılara satılan mineral gübrələrin, biohumusun və pestisidlərin güzəştlə satılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 23 fevral tarixli 25 nömrəli və "Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 26 noyabr tarixli 98 nömrəli Qərarı"nda da dəyişikliklər edilmişdir.

Həmçinin Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarı ilə "Kəngərli Rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxsin nizamnaməsi təsdiq edilmişdir. Qeyd edək ki, xəstəxananın fəaliyyətinin əsas məqsədi Kəngərli rayonunda çoxprofilli ixtisaslaşdırılmış stasionar və ambulator tibbi yardım göstərməkdən ibarətdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasından irəli gələn vəzifələr müzakirə olunub



Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyində keçirilmiş kollegiya iclasında çıxış edən agentliyin direktoru Bəxtiyar İsmayılov bildirib ki, beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında aidiyyəti orqanlarla yanaşı, agentliyə də müvafiq tapşırıqlar verilib.

Diqqətə çatdırılıb ki, 2019-cu ilin ilk altı ayı ərzində agentlik qanunvericiliklə müəyyən olunmuş hüquq və vəzifələrinə uyğun olaraq müvafiq işlərin icrasını həyata keçirib. Belə ki, 2017-ci il 25 iyul tarixli beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında verilmiş tapşırıqların icrası istiqamətində müvafiq işçi qrupu 98 halda sahibkarlarla görüş keçirib və istehsal olunan məhsulların ixracı üçün davamlı tədbirlər görüb. Qeyd olunub ki, 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müvafiq orqanların nümayəndələri ilə birgə, ümumilikdə, idxal olunan 1653 məişət qaz cihazına baxış keçirilib, təhlükəsizliyi təmin olunmayan 83 məişət qaz cihazının idxalına və satışına icazə verilməyib.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı" üzrə ailə təsərrüfatlarında meyvə və tərəvəzlərin qurudularaq paketlənməsi, keçirilən sərgilərdə ailə təsərrüfatı məhsullarının nümayişi, ixracının təşviqi və kataloqunun hazırlanması, ailə təsərrüfatlarında istehsal edilən məhsulların keyfiyyət göstəricilərinin nəzarətdə saxlanılması, sertifikatlaşdırılmasının və markalanmasının təşkil olunması diqqətdə saxlanılıb. Ailə təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarətin aparılması üzrə cari ilin ilk altı ayı ərzində məhsullardan 265 halda nümunələr götürülərək laboratoriyaya təqdim olunub, sınaqların nəticələrinin standartların tələblərinə uyğun olduğu müəyyən edilib. Cari ilin ilk altı ayı ərzində, ümumilikdə, muxtar respublika üzrə 194 ailə təsərrüfatına məhsulların etiketlərinin hazırlanmasında müvafiq köməklik göstərilib.

Qeyd edilib ki, bəhs olunan dövrdə keyfiyyət standartlarına əməl edilməsinə nəzarət işi, o cümlədən təsərrüfat subyektlərinin istehsalxidmət şəraitinin standartların tələblərinə uyğunluğu diqqətdə saxlanılıb. Ümumilikdə, məhsulların 780 halda, o cümlədən qida məhsullarının 722 halda keyfiyyət göstəricilərinin yoxlanılması təmin olunub. 2019-cu ilin ilk altı ayı ərzində standartların tələblərinə uyğun olmayan, ümumilikdə, 4381 manat dəyərində keyfiyyətsiz və ya kontrafakt məhsullar satışdan çıxarılıb. Həmçinin yerli istehsal məhsullarının keyfiyyətinin qorunması məqsədilə 161 qida istehsalı müəssisəsinə maarifləndirmə xarakterli baxış keçirilib, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq işlər görülüb.

Qarşıdakı dövrdə verilmiş tapşırıqlara da toxunan agentliyin direktoru vurğulayıb ki, gələcəkdə ailə təsərrüfatlarında istehsal edilən məhsulların növ və çeşidlərinin artırılması istiqamətində işləri davam etdirməli, yerli istehsal və idxal məhsullarının standartlara uyğunluğuna ciddi nəzarət olunmalıdır.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.



Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyində keçirilən iclasda agentliyin baş direktoru Hikmət Əsgərov çıxış edib.

Vurğulanıb ki, muxtar respublikada 2019-cu ilin birinci yarısında əhali arasında sığorta mədəniyyətinin inkişafı üçün bir sıra tədbirlər həyata keçirilib. İdarə, müəssisə və təşkilatlarda sığortanın mahiyyəti və əhəmiyyəti ilə bağlı mütəmadi olaraq yığıncaqlar keçirilib, vətəndaşlara, sahibkarlıq müəssisələrinə sığortanın ayrı-ayrı növləri ilə əlaqədar bildiriş vərəqələri verilib, məlumatlandırma işi aparılıb.

Qeyd olunub ki, 2019-cu ilin aprel ayında Dövlət Yol Polisi İdarəsi ilə birlikdə avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasının icrası vəziyyəti müzakirə olunub, bu sığorta növünün həyata keçirilməsində fərqlənən polis əməkdaşları mükafatlandırılıblar. Bundan əlavə, 2019-cu ilin aprel ayında sahibkarlara məxsus daşınmaz əmlakın icbari sığortasının həyata keçirilməsinin vəziyyəti barədə Fövqəladə Hallar Nazirliyinin və rayon, şəhər yanğın təhlükəsizlik idarələrinin əməkdaşları ilə birlikdə müşavirə keçirilib. Hesabat dövründə agentlik Sədərək, Şərur və Babək rayonlarında İcra hakimiyyətləri ilə birlikdə "Sığorta işinin təşkili, görülmüş işlər və qarşıda duran vəzifələrə dair" müşavirə, Şərur, Culfa, Babək rayonlarında isə maarifləndirici tədbirlər keçirib.

Bildirilib ki, "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulmuş "Aqrar sahədə sığortanın tətbiqi ilə bağlı tədbirlərin gücləndirilməsi" tapşırığına əsasən 2019-cu ilin birinci yarısında agentlik tərəfindən kənd təsərrüfatı bitkilərinin sığortası ilə əlaqədar ayrı-ayrı vətəndaşlar, fermer təsərrüfatları arasında izahat işi aparılıb. Şərur, Şahbuz, Kəngərli, Babək rayonlarının kəndlərində səyyar xidmət qrupu tərəfindən sığorta xidməti göstərilərkən bütün sığorta növləri, o cümlədən kənd təsərrüfatı məhsullarının sığortasının mahiyyəti barədə fermerlərlə, kənd təsərrüfatı məhsulları istehsalçıları arasında maarifləndirmə işi həyata keçirilib. 2019-cu ilin 6 ayında 625 vətəndaşa məxsus kənd təsərrüfatı bitkilərinin məhsulunun sığortası aparılıb.

Qeyd olunub ki, bu ilin birinci yarısında sığorta işinin həcmi 9,2 faiz artıb. Muxtar respublikada 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin birinci yarısında avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə bağlanılmış sığorta müqavilələrinin sayı 737 ədəd artıb. Daşınmaz əmlakın icbari sığortası üzrə bağlanılmış sığorta müqavilələrinin sayı isə 2019-cu ilin birinci yarısında 750 ədəd artıb.

Sonra çıxışlar olub.

* * *

Naxçıvan Dövlət Texniki Kollecində yarım ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı keçirilən iclası giriş sözü ilə kollecin direktoru Asəf Ruşanov açaraq bildirib ki, 2019-cu ilin birinci yarısında dərslərin əksəriyyəti kabinə və laboratoriya şəraitində keçilib, tələbələrin əyani vəsaitlərdən istifadə etməsinə şərait yaradılıb. Tədris planına əsasən bütün kurslarda yoxlama yazı işləri həyata keçirilib, kredit sistemi ilə təhsil alan qruplarda isə hər tədris ilində təlimata uyğun olaraq 3 kollekvium təşkil olunub. Kollekviumlar və yoxlama yazı işlərinin nəticələri ümumiləşdirilib və tələbələrin hazırlıq səviyyəsini yaxşılaşdırmaq, lazımi nəticələr çıxarmaq üçün təhlil edilib. Kollecdə tədris prosesinin plan əsasında aparılması öz səmərəsini verib.

Qeyd edilib ki, hesabat dövründə yeni Elektrik təchizatı, İstilik təchizatı və istilik texnikası avadanlıqları ixtisaslarında təhsil alan tələbələr üçün 2 yeni fənn kabineti yaradılıb. Ötən yarım il ərzində 8 ixtisas üzrə hami təşkilatlarla mütəmadi olaraq treninqlər, açıq dərslər təşkil edilib və istehsalat təcrübələri həmin hami təşkilatlarda keçirilib. Bu da kollecdə kadr hazırlığında görülən işləri stimullaşdırmaqla tələbələrin öz ixtisaslarını mükəmməl öyrənmələrinə müsbət təsir göstərib.



Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" Sərəncamının icrası ilə əlaqədar investisiya mühitini yaxşılaşdırmaq, yaradıcı düşüncəni və inkişafa xidmət edən ən yaxşı layihələri üzə çıxarmaq, tələbələrin innovasiya mühitinin formalaşması üçün Naxçıvan Dövlət Texniki Kollecində İnnovasiya laboratoriyası (İnnolab) yaradılıb. Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi və Naxçıvan Dövlət Texniki Kollecinin birgə təşkilatçılığı ilə tələbələrlə "İdeyadan biznesə" devizi altında tədbir keçirilib.

Diqqətə çatdırılıb ki, 2018-2019-cu tədris ilində əyani şöbədən 97, qiyabi şöbədən 12 tələbə olmaqla, ümumilikdə, 109 tələbə məzun olub. Onlardan 8-i fərqlənmə diplomuna layiq görülüb. Kollecin tələbələri müxtəlif tədbirlərdə, intellektual və idman oyunlarında, müsabiqələrdə yaxından iştirak edərək uğurlar qazanıblar.

Sonra məruzə ətrafında çıxışlar olub.

## Kifayət qədər suvarma suyu ehtiyatı yaradılıb



Şərur rayonunda 27 min hektardan artıq torpaq sahəsi müxtəlif suvarma qurğuları vasitəsilə qidalanır. Meliorasiya və suvarma qurğularının lazımi səviyyədə istismarı ilə yanaşı, zəruri yerlərdə təmir işləri də ardıcıl davam etdirilir. Nasos stansiyalarının, subartezian quyularının fasiləsiz işinin təmin olunması üçün vaxtaşırı tədbirlər həyata keçirilir.

Sel sularının ciddi fəsad törətməsinin əvvəlcədən qarşısını almaq məqsədilə Arpaçayın yatağı boyunca sahilbərkitmə tədbirləri davam etdirilir, çay yatağı təmizlənir, kənarları bərkidilir. Bu, torpaqların şoranlaşmasının da qarşısını alır. Yaşayış məntəqələrindəki içməli su xətlərinin təmiri də diqqət mərkəzindədir.

Bu gün Arpaçay dəryaçasında yığılan suyun maksimum səviyyədə olması belə deməyə əsas verir ki, mövsüm ərzində əkin sahələrini suvarma suyu ilə tam təmin etmək mümkün olacaqdır. Yerlərdə sudan səmərəli istifadə edilməsi, arxlardakı və kanallardakı sızmaların qarşısının alınması da daim nəzarətdədir.

**Xəbərlər şöbəsi**

***Yaşıl rənglərin ən gözəlidir, – desəm, yanılmaram. Çünki ana təbiətimizin rəngidir bu rəng. Yazın əvvəlindən torpağın bağrını yarıb çölü-düzü, dağı-daşı bəzəyən yaşıl çəmən daha sonra digər rənglərə öz qoynunda yer verir. Ağ, sarı, qırmızı, bənövşəyi gül-çiçəklə bu yaşıl çəmən insan ruhunun həmdəminə, məlhəminə çevrilir. Bəlkə, elə buna görədir ki, insanlar yaşıl rəngin vurğunudurlar. Füsunkar təbiətə malik muxtar respublikamızda son 25 ilə yaxın bir dövrdə iməciliklər yolu ilə salınan yaşıllıqlar, yaradılan gülkarlıqlar bu diyarı indi bağlar, güllər-çiçəklər məkanına çevirib. Ulu Yaradan ucqar kəndlərimizə, yaylaqlarımıza, dağlarımıza təbiətin əvəzsiz yaşıl görüntülərini bəxş etsə də, bunu deməyi özümə mənəvi borc bilirəm ki, şəhər və rayon mərkəzlərində, aran kəndlərimizdə yaşıllıqlar illər öncə bu qədər deyildi. Ötən illər yaşıllaşdırma sahəsində görülən işlər, sözün həqiqi mənasında, Naxçıvanımızın iqlimini dəyişib. Artıq burada şəhərlər, rayonlar da dəniz səviyyəsindən yüz metrlərlə yüksəklikdə yerləşən kəndlərimiz, yaylaqlarımız qədər yaşıl, yaşıl olduğu üçün də bol oksigenli, təmiz havalıdır. Yaşıllaşdırma ilə bağlı son illərin statistik məlumatlarına baxılarsa, sözsüz, digər məmləkətlər, şəhərlər diyarımızın kölgəsində qalar.***

# “İqlim otağı”...

## *Bura təbiətin qoynuna tələsənlərin “məkanıdır”*



Elə bu düşüncələrlə yolumu yeni ağac, gülyetişdirmə sahəsindən – “İqlim otağı”ndan saldım. Ömrünün fidan çağını yaşayan güllərin, ağacların “məkanı” məni xəyalən 1990-cı illərə apardı – muxtar respublikamızın blokadaya salındığı ilk illərə. Elektrik enerjisinin, təbii qazın kəsilməsi səbəbindən bağ-bağçalarımızda, yol kənarlarında, meşələrdə, sanki biləyimizi kəsirmiş kimi doğrayıb sobamıza qoyduğumuz, kötüyü “qan ağlayan” ağacları xatırlayır, bir də bu gün diyarımızda hara üz tutsan, çiyin-çiyinə vermiş, bir-birinə hayan, qol-qanad ağacları, bütün bunların fonunda əsrarəngiz yaşıllıqları göz önünə gətirirəm. Qonşumuz Həsən kişinin o illərdə həyətindəki ağaclar kəsilərkən göz yaşlarını xatırlayıram.





Biz milli dəyərlərimizə görə “Kişi ağlamaz”, – deyə tərbiyə almışıq. Həsən kişi ağlayanda böyüklərimdən eşitdiyim bu sözləri xatırlayır, “Kişi də ağlayar?” – deyə düşünürdüm. Ondan ağlamasının səbəbini soruşanda verdiyi cavabı da yaxşı xatırlayıram: “Gəlin kəsin mənim əllərimi, amma ata-babamın saldığı, vedrə-vedrə su daşıyıb dibinə tökərək böyütdüyü ağacları kəsməyin. Bu ağaclara endirilən balta, sanki köksümə saplanır”. Bir qədər sonra çarəsizlikdən Həsən kişinin özünün əlinə balta götürdüyünü görəndə bütün qonşuların ağladığı isə blokadanın acılarına şahid gəncliyimin ən məyusedici xatirəsidir.

Düşünürəm ki, gör biz hansı illərdən hansı illərə gəlib çıxmışıq. Yenə blokada şəraiti, lakin o illər, bu illər… İndi o illər kəsilən bir ağacın yerinə on yox, onlarla ağac əkilib. Üstəlik, yeni-yeni bağlar salınıb. Meşə sahələri yaradılıb. Bir vaxtlar iməciliklərə qəribə münasibətlə yanaşan bəzi insanları belə ötən illərin uğurlu nəticələri indi yaşıllıqların salınması işinin ən fəal üzvlərinə çevirib. Təbiətin qoynuna tələsən bu bitki aləmini gəzərkən, ötən illər bax belə səhifələnir gözlərim önündə.

“İqlim otağı”nın açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun çıxışında yaşıllaşdırma sahəsində ötən illərlə bu günün müqayisəli portretini yaradan dəyərli fikirləri o acınacaqlı mənzərələri gözlər önünə gətirir. Ali Məclisin Sədri demişdir: ***“Ötən əsrin 90-cı illərinin acı nəticələri muxtar respublika təbiətinə də təsir etmiş, ağaclar kütləvi qırılmış, yaşıllıqlar məhv edilmişdi. 1995-ci ilin statistikasına əsasən həmin dövrdə muxtar respublikada yaşıllıqlar ümumi ərazinin 0,6 faizini təşkil edirdi. Lakin ötən dövrdə həyata keçirilən yaşıllaşdırma tədbirlərinin nəticəsidir ki, bu gün muxtar respublikada ümumi ərazinin 20 faizə yaxını yaşıllıqlardır. Həmçinin muxtar respublika ərazisinin 27 faizi xüsusi mühafizə olunur, nadir ağac və bitki növləri qorunur, eyni zamanda mütəmadi yaşıllaşdırma tədbirləri həyata keçirilir”.***

Naxçıvan Yaşıllaşdırma Xidmətinin 6 saylı Tingçilik Sahəsinin rəisi Yasin Babayevlə söhbət edə-edə ərazidə gəzərkən o, bizi burada tikilmiş 8 parnik və 4 binada işçilər üçün yaradılmış lazımi şəraitlə, iş otaqları ilə tanış etdi. Əsas binada gül-bəzək kollarının və meyvə tinglərinin yetişdirilməsi üçün yaradılan “İqlim otağı” ilə bağlı dedi: – Muxtar respublikada yaşıllıqların sahəsi ilbəil artırılır, yeni meyvə bağları salınır. Elə buna görə də yeni tingçilik təsərrüfatlarının inkişafına ehtiyac yaranır. Bu gün müxtəlif meyvə və həmişəyaşıl tinglərə, gül və bəzək kollarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi diqqətdə saxlanılır. Yaşıllaşdırma Xidmətinin tingçilik sahəsi üçün yeni kompleksin tikilməsi və “İqlim otağı”nın yaradılması da bu sahədə görülən işlərin davamıdır. Burada yetişdiriləcək ağac tingləri və gül kolları gələcəkdə Naxçıvanın gözəl təbiətini daha da zənginləşdirəcəkdir. Otaqda 108 rəf quraşdırılıb. Buradakı şərait toxum vasitəsilə 11 min 664, şitil və ya qələm vasitəsilə 4536 ədəd olmaqla, il ərzində 105 min müxtəlif növ ağac, gül və bəzək bitkiləri yetişdirməyə imkan verir. Otaq təbii hava şəraitindən tamamilə təcrid olunub, avtomatlaşdırılmış işıqlandırma, suvarma, havalandırma, isitmə və nəmləndirmə sistemləri ilə təchiz edilib. Buradakı süni iqlim şəraiti istənilən növ bitkini yetişdirməyə və digər növ istixanalarla müqayisədə bitki yetişdirilməsi sahəsindəki məhsuldarlığı bir neçə dəfə artırmağa imkan verir.

“İqlim otağı”nda yetişdirilən bitkilər təbii şəraitə uyğunlaşdırılmaq üçün daha sonra müvəqqəti saxlanma anbarına veriləcək və satışa çıxarılacaq. Yasin Babayev ərazidə mağazanın, gübrə və digər vasitələrin saxlanması üçün anbar yaradılmasını, bütün binaların istilik, elektrik və su sistemləri ilə təchiz olunduğunu da qeyd etdi.

“İqlim otağı”nın operatoru Elməddin Səmədov isə bizi toxum və qələməkmə prosesi ilə tanış edib dedi: “Əvvəlcə ting və toxum iş otaqlarında torf və torpaq qarışımında xüsusi qablarda əkilir və “İqlim otağı”ndakı rəflərə yerləşdirilir. Burada onlara qulluq edilir”.

O, fidan ömrünü yaşayan ting və güllərdən də danışdı. Bir-birindən gözəl qızılgülləri, atlası, qar, barama, gümşad güllərini, körpə şam tinglərini göstərərək onların yaxın gələcəkdə muxtar respublikamızın şəhər və rayonlarını bəzəyəcəklərini bildirdi.

Ali Məclisin Sədri “İqlim otağı” istifadəyə verilərkən demişdir: ***“Bu günə qədər muxtar respublikada müxtəlif tinglərə və gül kollarına olan tələbatın bir hissəsi idxal hesabına həyata keçirilirdi. Lakin yaradılan şərait imkan verəcəkdir ki, tələbat tamamilə yerli istehsal hesabına ödənilsin, ərazilərə uyğun meyvə və həmişəyaşıl tinglər, bəzək kolları və güllər yetişdirilsin. Müasir avadanlıqlarla təmin olunmuş “İqlim otağı”nda tinglər və gül kolları açıq havaya nisbətən daha tez böyüyür. Bu da daxili tələbatı iki dəfədən artıq ödəməyə imkan verir. Muxtar respublikanın aid təşkilatları ilə tingçilik sahəsi arasında qarşılıqlı əlaqə yaradılmalı, sifarişlər qəbul olunmalıdır. Kollektiv həm dövlət təşkilatlarının, həm də əhalinin tələbatına uyğun ağac və bəzək kolları yetişdirməlidir”.***

Bu dəyərli fikir və tövsiyələri kollektiv üzvləri fəaliyyət proqramına çeviriblər. Onların həm yaşıllaşdırma sahəsində, həm də iş otaqlarında səylə çalışmaları, işə məsuliyyətlə yanaşmaları bunu bir daha göstərir.

“İqlim otağı”ndakı rəngarəng güllərin, ting və bəzək kollarının yaxın gələcəkdə təbiətin qoynuna “yolçuluğunun” yaşıllıqlar içərisində olan şəhər və rayonlarımızın, park və xiyabanlarımızın hüsnünə vuracağı naxışlar göz önünə gəlir. Bu füsunkarlıq qarşısında heyran qalaraq düşünürəm: Vaxt gələcək ki, Naxçıvandan söhbət açanlar muxtar respublikamızı təbiətin ona bəxş etdiklərini insan əllərinin daha da zənginləşdirməsi ilə sahib olacağı görüntülərlə “yaşıl diyar” adlandıracaqlar.

✍ **Mətanət MƏMMƏDOVA**

# Müşavirə keçirilib



Culfa Rayon İcra Hakimiyyətində keçirilən müşavirəni İcra Hakimiyyətinin başçısı Siyam Hacıyev açaraq məruzə ilə çıxış edib. Qeyd olunub ki, iqtisadiyyatın bütün sahələrinə göstərilən hərtərəfli dövlət dəstəyi rayonun inkişafında mühüm rol oynayıb. Rayonda təbii xammal bazasının mövcudluğu, yeni sahibkarlıq subyektlərinin yaradılması sahəsində həyata keçirilən tədbirlər rayonda istehsal potensialının güclənməsinə səbəb olub.

2019-cu ilin 6 ayında rayonda 3 milyon 473 min 900 manatlıq sənaye məhsulu istehsal edilib.

Rayon iqtisadiyyatında aparıcı sahə olan kənd təsərrüfatının inkişafı ötən illərdə olduğu kimi “Ailə təsərrüfatları ili”nin birinci yarısında da diqqət mərkəzində saxlanılıb. Belə ki, 1204 kənd təsərrüfatı məhsulları istehsalçılarına 50 faizi güzəştli şərtlərlə olmaqla, 959 min 850 manat dəyərində 1465 ton mineral gübrə satılıb, yanacaq və motor yağlarına görə isə 319 min 950 manat dövlət yardımı verilib.

Vurğulanıb ki, 2019-cu ilin məhsulu üçün 2018-ci ilin payızında və cari ilin yazında 8213 hektar sahədə əkin aparılıb. Əkilmiş sahələrin 5381 hektarı buğda, 1172 hektarı arpa olmaqla, 6553 hektarını taxıl, 513 hektarını dənli-paxlalılar, 279 hektarını kartof, 364 hektarını tərəvəz, 130 hektarını bostan məhsulları, 9 hektarını qarğıdalı, 13 hektarını günəbaxan bitkisi, 35 hektarını birillik, 317 hektarını isə çoxillik otlar təşkil edib. Bu dövrdə 279 hektar kartof əkini sahəsinin 130 hektarından 1020 ton, 364 hektar tərəvəz əkini sahəsinin 90 hektarından 330 ton, barverən meyvə bağlarından 947 ton məhsul yığılıb.

Bəhs olunan dövrdə rayonda 1540-ı badam, 1100-ü ərik, 150-si alma, 160-ı gilənar olmaqla, ümumilikdə, 2950 meyvə ağacı əkilib.

Qeyd olunub ki, cari ilin 6 ayında rayonda diri çəkidə 2021 ton ət, 5725 ton süd, 4 milyon 85 min ədəd yumurta, 127,4 ton yun istehsal edilib.

Rayonda təhsil, mədəniyyət, səhiyyə, rabitə və digər sahələrdə qazanılan uğurlardan, mövcud nöqsanların aradan qaldırılmasının vacibliyindən danışan Siyam Hacıyev ilin ikinci yarısında qarşıda duran vəzifələrdən də bəhs edib. Diqqətə çatdırılıb ki, 2019-cu ilin ikinci yarısında rayonun sosial iqtisadi inkişafı üçün yaradılan imkanlardan səmərəli istifadə edərək daha yüksək nəticələr əldə olunacaq.

Məruzə ətrafında çıxışlar dinlənilib.

**Alim AĞAYEV**

# Sahələrdə bol məhsul yetişdirilib



Son illər həyata keçirilən aqrotexniki tədbirlər, keyfiyyətli toxum və gübrə təminatı, torpaqların münbitləşdirilməsi və müasir irriqasiya sistemlərinin istifadəyə verilməsi Ordubad rayonunda da taxıl istehsalında uğurlar əldə edilməsinə səbəb olub. Taxıl sahələrində mütərəqqi əkin və suvarma metodlarından istifadə, zərərvericilərə və xəstəliklərə qarşı vaxtında mübarizə tədbirlərinin görülməsi taxılın vegetasiya dövründə inkişafına və bol məhsul istehsalına yol açıb. Bütün bunların nəticəsində taxıl sahələrindən yüksəkkeyfiyyətli və bol məhsul götürülməsi, taxılçılıqla məşğul olan sahibkarlar onlara göstərilən hərtərəfli diqqət və qayğı hesabına növbəti təsərrüfat ilini uğurla başa vurublar. Belə ki, rayonun torpaq mülkiyyətçiləri 1964 hektarda payızlıq və yazlıq dənli və dənli-paxlalı bitkilər yetişdirərək 56 min 790 sentner məhsul əldə etməyə müvəffəq olublar. Bu, taxılçıları daha da ruhlandırıb və 2019-cu ildə rayon üzrə 1685 hektarda taxıl yetişdirilib. 15 iyul 2019-cu il tarixə 1685 hektar sahənin məhsulu tədarük edilib, 4785 ton taxıl götürülüb. Bu, hər hektardan orta hesabla 28,4 sentner məhsul deməkdir.

Ayrı-ayrılıqda götürdükdə, bu il rayonun Dəstə, Düylün, Biləv, Aza, Vənənd, Azadkənd, Sabirkənd, Üstüpü kəndlərində daha çox taxıl əkilib-becərilib.

Builki taxıl biçininin vəziyyəti ilə yerində tanış olmaq üçün bir neçə kəndə üz tutduq. Dəstə kəndində sahibkar Elman Məmmədəliyevlə söhbətdə öyrəndik ki, onlar təsərrüfatın bu gəlirli sahəsi ilə neçə illərdir, məşğul olurlar. Göstərilən hərtərəfli dövlət qayğısı və əkin sahələrinin münbitliyi onlara çəkdikləri zəhmətin qarşılığını artıqlaması ilə almaq imkanı verib. Bu il Elman Məmmədəliyevin rəhbərlik etdiyi kollektiv 78,58 hektar ərazidə bol məhsul yetişdirib.

Dəstə kəndində digər sahibkar Kərim Kərimov 20,5 hektarda, Hafiz Salmanov 30,3 hektarda, Nəriman Cəfərov isə 22,5 hektarda taxıl əkiblər. Onlar da dövlətin bu sahəyə olan diqqət və qayğısından yetərincə bəhrələndiklərini söylədilər. Xüsusən də maşın və texnikaların, kombaynın vaxtında göndərilməsi həm bol məhsul yetişdirilməsinə, həm də yetişdirilən məhsulun itkisiz toplanılmasına imkan verib.

Vənənd kəndində Yəhya Yəhyayev 17,3 hektarda, Məhəmməd Cəfərov isə 12 hektarda məhsul yetişdirib. Hər iki sahibkarın ixtiyarında şəxsi kombaynların olması yetişdirilən məhsulun vaxtında və itkisiz toplanılmasına imkan verib. Elə buna görə də onlardan bu ilin təsərrüfat göstəriciləri ilə maraqlandıqda bildirdilər ki, şükürlər olsun, torpaq onun əziyyətini çəkənin əvəzini artıqlaması ilə geri qaytarır.

Qeyd edək ki, bu il Ordubad rayonunda taxıl biçininə 5 kombayn cəlb edilib. Kombayınçılardan Əli Həsənov, Nəbi Qurbanov, Mənsur Həsənov, Yəhya Yəhyayev və Hilal Hüseynov bizimlə söhbətdə istər ehtiyat hissələri ilə, istərsə də sürtkü yağları və yanacaqla təminatda heç bir problemlə qarşılaşmadıqlarını bildirdilər. Biçin zamanı texniki təhlükəsizlik qaydalarına tam əməl edilməsi nəticəsində isə heç bir xoşagəlməz hadisə ilə rastlaşmayıblar.

Bu gün əksər yaşayış məntəqələrimizdə kənd adamları özlərinin əkib-becərdikləri taxılın çörəyini yeyirlər. Bu isə dövlətimizin taxılçılığın inkişafına və insanlara qayğısının bariz ifadəsidir.

**Abbas SEYİD**



## Türkiyənin 15 iyul – Demokratiya və Milli Birlik Günü ilə bağlı tədbir olub

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulluğunda 15 iyul – Demokratiya və Milli Birlik Günü ilə bağlı keçirilən tədbirdə əvvəlcə qardaş ölkədə 2016-cı il iyulun 15-də baş verən dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı qəhrəmancasına şəhid olan insanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri səsləndirilib.

Tədbirdə Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz çıxış edərək bildirib ki, tarixin ağır sınaqlarından üzüağ çıxan türk xalqı 2016-cı il iyulun 15-də böyük qəhrəmanlıq göstərərək ölkədə hərbi çevriliş cəhdinin qarşısını alıb. Əliyalın insanlar tankların, silahlı qiyamçıların qarşısına çıxaraq dövlətin, qanuni hakimiyyətin müdafiəsini təmin edib, demokratiyaya sadiqliyini göstərib. Türkiyənin dövlətçilik tarixinə qəhrəmanlıq salnaməsi kimi yazılan həmin gün cəsur insanlar öz həyatları bahasına da olsa, qiyamçıların hakimiyyəti ələ keçirməsinə imkan verməyib. Hakimiyyət-xalq birliyinin möhkəm həmrəyliyi sayəsində dövlət çevrilişi cəhdinin qarşısı alınıb. Bu zaman Türkiyə 251 şəhid verib.

Qeyd olunub ki, şəhidlərin əziz xatirəsini anmaq üçün, qazilərə ehtiram əlaməti olaraq keçirilən bu tədbirin əsas məqsədi də dövlət çevrilişinin necə baş verdiyini dərindən öyrənmək və bu çevrilişin əsas səbəbkarının əməl və məqsədlərini ortaya çıxararaq gələcək nəsillərə düzgün şəkildə çatdırmaqdır.

Türkiyə Respublikasının İqdır Universitetinin müəllimləri Tunçay Özdemir və Ali Kuyaksil çıxışlarında dövlət çevrilişinin detalları barədə danışıblar.

Tədbirdə 15 iyul – Demokratiya və Milli Birlik Günü ilə bağlı videoçarxlar da nümayiş olunub.

*Muxtar respublikada icbari tibbi sığortadan yararlanan daha bir nəfər üzərində pulsuz cərrahi əməliyyat aparılıb.*

## Açıq ürək əməliyyatı aparılıb

İcbari tibbi sığortaolunan Şərur şəhər sakini, 53 yaşlı Qafil Həsənov Şərur Rayon Mərkəzi Xəstəxanasına ürək nahiyəsində yaranan ağrı ilə müraciət edib və müayinə olunub. Müayinə nəticəsində onun ürəyində ciddi problemlər aşkar edilib. Qafil Həsənov Şərur Rayon Mərkəzi Xəstəxanası tərəfindən Naxçıvan Diaqnostika Müalicə Mərkəzinə göndərilib. Aparılan elektrokardioqrafik, exokardioqrafik və laborator müayinələrindən sonra xəstəyə ürəyin işemik xəstəliyi, gərginlik stenokardiyası diaqnozu qoyulub və təcili ürək əməliyyatı həyata keçirilməsinə zərurət yaranıb. Mərkəzin kardiocərrahı İntiqam Fətullayev həmkarı Firdovsi Hüseynov və kardioanestezioloq Elçin Abdullayevlə birgə açıq ürək əməliyyatını uğurla başa çatdırıb. Ürək qan dövranı tam bərpa edilib və həkim müşahidəsi altında saxlandıqdan sonra palataya köçürülüb və həkim nəzarəti altındadır.

Qafil Həsənova göstərilən bütün tibbi xidmətlərin xərcləri İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən qarşılanıb.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

## Praktik seminar keçirilib

*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə "Məhkəmə Ekspertizası Mərkəzində elmi-texniki, kriminalistik üsul və vasitələrdən istifadə etməklə keçirilən ekspertizalar" mövzusunda praktik seminar keçirilib.*



Muxtar respublikanın gömrük orqanları əməkdaşlarının iştirak etdikləri seminarda Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin rəisi, ədliyyə müşaviri Rafiq Cəfərov mərkəzdə həyata keçirilən ekspertizalar barədə məlumat verib.

Bildirilib ki, cəmiyyətimizin hazırkı inkişaf mərhələsində məhkəmə-istintaq orqanlarının işinin yaxşılaşdırılmasının, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsinin, hər bir cinayətə görə məsuliyyətin və cəzanın labüdlüyünün təmin edilməsinin əsas şərtlərindən biri də ekspertiza tədqiqatları zamanı müasir metod və vasitələrin təcrübədə geniş tətbiq edilməsidir. Məhkəmə-ekspert fəaliyyəti ilə məhkəmə istintaq orqanlarının fəaliyyəti arasında mövcud hüquqi münasibətlərin əsasında ədalət mühakimə icraatının prinsipləri durur. Eyni zamanda hüquq-mühafizə orqanları işçiləri və ekspertlər tərəfindən qanunun tələblərinə düzgün riayət olunması dayanır. Məhz bu praktik seminar da həmin münasibətlərin daha da dərinləşdirilməsi məqsədi daşıyır.

Tədbirdə mərkəzin rəis müavini, ədliyyə müşaviri Elman Abbasov və əmtəəşünas-ekspert, I dərəcəli ədliyyə qulluqçusu Sərdar Nəcəfov çıxış edərək ümumi ekspertizanın təqdim olunması, maddi sübutların düzgün qablaşdırılması qaydaları, əmtəəşünas ekspertizası üzrə maddi sübutların təqdimatı, qablaşdırılması və bu istiqamətdə aparılan digər ekspertiza işləri barədə ətraflı məlumat veriblər.

Sonra tədbir iştirakçıları məhkəmə-ballistik ekspertizası sahəsi üzrə mərkəzdə olan müasir avadanlıqlar və onların iş prinsipi ilə, pul nişanlarının, əskinasların, metal sikkələrin və qiymətli kağızların ekspertizası sahəsi üzrə avadanlıqlarla, narkotik vasitələrin və psixotrop maddələrin ekspertizasının aparılması zamanı istifadə olunan müasir avadanlıqlarla yaxından tanış olub onların iş prinsipini öyrəniblər.

Sonda suallar cavablandırılıb.

**✍ Nail ƏSGƏROV**



*Mühüm həyat səviyyəsi göstəricisi olan turizmin inkişafına Naxçıvan Muxtar Respublikasında ciddi diqqət yetirilir. Turizmin inkişaf məsələləri bütün dövrlər üçün aktual və kifayət qədər çətin olub. Burada müasir turistlərin tələbatlarının düzgün qiymətləndirilməsindən tutmuş mürəkkəb beynəlxalq vəziyyətə görə qərarlar qəbul edilməsinədək hər cür məsələlər vardır. Lakin təcrübə göstərir ki, cəlbedici turizm marşrutlarının yaradılması bu sahədəki işlərin həllinə həmişə təkan verir.*

Turizm marşrutları

## Naxçıvan-Sədərək turizm marşrutu

Muxtar respublikamızda həm yerli, həm də əcnəbi turistlərin marağını cəlb edəcək xeyli sayda turizm marşrutları vardır. Bu gün diyarımızda mərkəz nöqtəsi Naxçıvan şəhəri olmaqla, Naxçıvan-Batabat, Naxçıvan-Ağbulaq, Naxçıvan-Ordubad-Gəmiqaya, Naxçıvan-Əshabi-Kəhf, Naxçıvan-Əlincəqala və Naxçıvan-Qarabağlar istiqamətlərindəki turizm marşrutları boyunca səyahət və xidmətlər turistlər tərəfindən maraqla qarşılanır. Ancaq perspektivdə bu marşrutların sayının daha da artırılması və bu istiqamətlərdə satışa çıxarılan yollayışların turistlərə təqdim olunması da mümkündür. Belə ki, Naxçıvan-Nehrəm, Naxçıvan-Nəhəcir və Naxçıvan-Sədərək kimi perspektiv marşrutlar da indidən turistlərin marağını cəlb etməkdədir.

Turizm marşrutları geniş mövzu olub, xüsusən Naxçıvan kimi turizm potensialı hələ ki tam istifadə olunmayan bir diyarda həm araşdırma, həm də yeni startap layihələri kimi də maraq kəsb edir. Ona görə də turizm marşrutlarına qarşı qoyulan ümumi tələblər haqqında danışarkən bu sahədə əldə olunan biliklərlə bərabər, bu marşrutların hazırlanması zamanı çevik qiymətləndirmə, marketinq, marşrut üzərində yerləşən yaşayış məntəqələrindəki yerli əhalinin maraqları, milli adət və ənənələr, əsasən, xidmət sahələri olmaqla, kiçik sahibkarlığın, fərdi ailə təsərrüfatlarının imkanları da nəzərə alınmalıdır. Marşrut boyunca turistlərin ala biləcəkləri informasiyanın etibarlı və inandırıcılığı vəzifəsi isə bəzilərinin düşündüyü kimi yalnız taksi sürücülərinin deyil, həm də bu sahənin peşəkarları olan turizm bələdçilərinin üzərinə düşür. Çünki yurdumuzun tarixini və bugünkü inkişafını hamıdan yaxşı bilmək, onun hər bir qeyri-adi mənzərəsinə – əzəmətli qayasına və kiçik bir daşına, sıx meşəsinə və tənha bənövşəsinə, qarlı qışına və gül-çiçəkli yazına peşəkar bir turist gözü ilə də baxmaq lazımdır. Bu mənada, Naxçıvan-Sədərək turizm marşrutunun olduqca cazibədar xüsusiyyətləri görünməkdədir.

Naxçıvan-Sədərək turizm marşrutu muxtar respublikanın paytaxtı Naxçıvan şəhərindən başlayaraq qərbə doğru, təqribən, 90 kilometr boyunca uzanır. Bu marşrut, təxminən, 30 kilometr məsafədə Naxçıvan-Qarabağlar turizm marşrutu ilə üst-üstə düşür. Yol boyunca Sədərək rayonuna çatanadək muxtar respublikanın ən böyük inzibati ərazi vahidlərindən biri olan Şərur rayonu ilə tanışlıq da mümkündür. Belə ki, bu tip marşrutlar, adətən, birgünlük olduğundan tur proqramların tərtibi zamanı rəngarənglik üçün yolboyu yaşayış məntəqələrindəki tarixi-mədəni zənginliklərlə tanış olmaq, milli mətbəxdən daddmaq olar. Dünya standartlarına uyğun olaraq inşa edilmiş müasir yolla hərəkət edən turist avtobusu normal sürətlə, təxminən, bir saat yarımlıq bir müddətdə ölkəmizin ən qərb nöqtəsi, qardaş Türkiyə Cümhuriyyəti ilə qonşu olan Sədərək rayonuna çatır.

Sədərək mühüm strateji nöqtədə yerləşir. Üç dövlətlə sərhəddə yerləşən rayon inzibati mərkəzi olan və ulu öndərin adını daşıyan Heydərabad qəsəbəsi, Sədərək, Qaraağac və Kərki kənd inzibati ərazi dairələrindən ibarətdir. 1990-cı ildə Kərki kəndi Ermənistan tərəfindən işğal edildiyindən rayon əhalisi hazırda 3 yaşayış məntəqəsində cəmləşib.

Heydərabad qəsəbəsi və Sədərək kəndinin müasir sosial həyatı ilə tanış olan turistlərə bildirilməlidir ki, Sədərək kəndi təkcə muxtar respublikamızın deyil, eləcə də ölkəmizin iri kənd yaşayış məntəqələrindən biridir. Bir çox mənbələrdə adı "Səd rəng", yəni "Min rəng" kimi qeyd olunan bu kənddə "Sədərək qalası", "Ağ oğlan", "Kültəpə" kimi çox sayda türkmənşəli toponimlər vardır.

Sədərək haqqında turistlərə təqdimata başlayarkən yaxın keçmişdə sədərəklilərin xalqımızın qəhrəmanlıq tarixindəki yerini mütləq çatdırmaq lazımdır. Aralarında qadın, kişi, qoca, cavan – 52 sədərəkli şəhidin uyuduğu Şəhidlər xiyabanında bir dəqiqəlik sükutdan sonra Sədərəklə tanışlığa başlamaq olar. Gələn turistlər bilməlidirlər ki, burada erməni təcavüzkarlarına qarşı ilk döyüş 1990-cı il yanvar ayının 18-də olub. Təkcə 1990-cı il mart ayının 28-də Ermənistan tərəfdən Sədərəyə 300-ə yaxın top mərmisi atılıb. Bu müddət ərzində ərazidə 500-ə yaxın yaşayış evi, məktəblər, inzibati binalar dağıdılıb. Həmin illərdə Naxçıvanın bütün bölgələrindən, həmçinin ölkəmizin digər yerlərindən Sədərəyə kömək gəlib. Qeyri-bərabər döyüşlərdə 500-ə yaxın adam yaralanıb. 108 azərbaycanlı şəhidlik zirvəsinə ucalıb ki, onlardan 52-si sədərəklidir. Sədərək Rayon Tarix-Diyarşünaslıq Muzeyindəki zəngin eksponatlar arasında bu tarixi sənədlərlə tanış olan turistlərdə heç zaman unudulmayacaq təəssüratlar yaranacaq.

Sədərəyə gəlmiş hər bir qonaq 1918-ci ildə erməni quldurları Naxçıvana hücum edərkən qədim diyarı müdafiə məqsədilə buraya gələn türk ordusunun əsgəri Əli Çavuşun qəbri üzərindəki abidəni də ziyarət edə, şəhidin qəhrəmanlıq hekayəsini maraqla dinləyə bilər. Deyilənə görə, qəhrəman türk əsgəri Şərur rayonunda "Qaratəpə" adlanan yerdə yaralanıb şəhidlik zirvəsinə ucalır və vəsiyyətinə görə Sədərəkdə dəfn edilir. Şəhidlər xiyabanında bu gün Əli Çavuşun qəbirüstü abidəsi də ziyarət olunur.



Təbii cazibə elementi qardaş Türkiyə ərazisindəki Ağrı dağı mənzərəsi Sədərəyə gəlmiş turistlər üçün maraqlıdır. Bölgənin ən yüksək zirvəsi olan bu dağın Sədərəkdən açılan panoramı fotoovçuluq və yaxud sunset turizmi həvəskarları üçün olduqca cazibədardır. Sədərək rayonu ilə Ağrı dağı arasındakı yol məsafəsi, təxminən, 200 kilometr olsa da, aydın havalarda görüş məsafəsi çox yaxın olur. 5 min metrdən çox hündürlüyə malik olan Böyük Ağrı dağı və 4 min metrə yaxın hündürlüyü olan Kiçik Ağrı Anadolu yaylasının ən yüksək zirvələri kimi ilin bütün fəsillərində öz gözəlliyi ilə onu görənləri heyran edir. Qeyd edək ki, "Nuh tufanı əfsanəsi" adı ilə tanınan Ağrı dağının yalnız Sədərəkdən olan görüntüsü məhz bu rayonun təbii turizm cazibədarlığını artıran amillərdəndir.

Tarix həvəskarları kimi Sədərəyə gələn turistlər üçün buradakı Eneolit, Tunc dövrlərinə və orta əsrlərə aid yaşayış yerləri təqdim oluna bilər. Sədərəyin cənubunda eramızdan əvvəl IV-III minilliyə aid yaşayış yeri vardır. Burada Əjdəkan, Cin təndiri, Cəhənnəmdərə, Şir arxı, Dəhnə, Qırmızılar, Fərhad arxı, Kültəpə, Ağ oğlan, Karvansara, Ələddin, Qaraburun və digər tarixi yer adları maraq kəsb edir. Sədərək qalasının izləri bu günədək qalmaqdadır. Rayon ərazisində tarix-memarlıq abidələrindən 3 məscid, orta əsrlərə aid qala xarabalığı, müdafiə istehkamı, karvansara, Ağ oğlan piri və hamam binası vardır. Qədim İpək Yolu üzərindəki Naxçıvan karvansaralarından biri olan Sədərək kəndinin cənubundakı karvansaranın XX əsrin əvvəllərinə qədər fəaliyyət göstərdiyi tarixçilər tərəfindən sübut olunub. Sədərək rayonu ərazisində bu gün də yaşamaqda olan Günnüt və ya Küngüt toponimi, ehtimal ki, monqolların tərkibində Azərbaycana gələn küngüt türkdilli tayfa adı ilə əlaqəlidir.

Sədərəyə gəlmiş turistlər üçün "Ağ oğlan" əfsanəsi cazibədar ola bilər. Yerli əhali arasında yayılmış əfsanəyə görə, qədim zamanlarda indiki Sədərək kəndinin yerində insanlarla bir arada yaşayan dağ keçilərinin balasını saxtakar dərviş öldürüb. Kənd camaatı Dərvişi qılıncla doğrayaraq sirli şəkildə yoxa çıxan ağ örtüklü Qorxmazı "ağ oğlan" deyərək axtarır. Sonralar onun ana keçinin ölmüş balasının qanı ilə qarışıb daşa döndüyü yer ziyarətgaha çevirilib. İnsanlar indi də bu ziyarətgaha gəlib dualar edirlər.

*Sədərəklilər çox qonaqpərvərdirlər. İlin istənilən vaxtında Naxçıvandan qərbə doğru yola çıxıb Sədərəyə doğru irəlilədikcə yolboyu ətraf şəhər və kəndlərin gözəllikləri, sözün əsl mənasında, göz oxşayır. Bu marşrutun sonunda Vətənimizin ən qərb nöqtəsi, yurdumuzun döyünən ürəyi, Naxçıvanın qeyrət qalası Sədərəklə mükəmməl tanışlıq bizi gözləyir. Qeyri-adi təbiət mənzərələri, zəngin tarixi, sənətkarlıq nümunələri, unudulmaz qəhrəmanlıq səhifəsi ilə yanaşı, Sədərəyin özünəməxsus olan milli mətbəxi və meyvə bağları da bu marşrut boyunca hazırlanmış tur proqramlara daxil edilə bilər.*

**Aysel BAĞIROVA**
**"Naxçıvan" Universitetinin Turizm və otelçilik ixtisası üzrə II kurs tələbəsi**

*Bu gün hər qarışına vurulan yeni naxışların ecazkarlığı insanların mənəvi dünyasına sirayət edən, tarixi minilliklərlə ölçülən qədim Naxçıvan torpağının gözəlliyi buraya qədəm qoyan hər kəsi heyran edir. Tarixlərin yadigarı olan yurdumuza səfər edənlər buraya yenidən gəlmək, bu gözəl diyarı təkrar-təkrar seyr etmək istəyir. Hər gələn qonaq öz elinə-obasına qayıdanda Qafqazda Naxçıvan adlı gözəl, qədim, ən əsası isə səmimi insanları olan bir igidlər yurdu var, – deyir. Günü-gündən gözəlləşən, tarixindən əzəmət, məğrurluq yağan doğma diyarımızda turistlər qonaqpərvərliklə qarşılanır, yüksək səviyyəli xidmətin, mehriban münasibətin şahidi olurlar. Qədim abidələri, zəngin və təkrarolunmaz təbiəti, iqlimi, müalicəvi suları, flora və faunası, bənzərsiz sənət növləri ilə məşğul olan insanların çoxluğu bu diyarı turizmin inkişafı üçün əlverişli məkana çevirib.*

# Əcnəbi qonaqların Naxçıvan təəssüratları



Əlbəttə ki, hər kəs kimi, dünyaya göz açdığımız torpaq bizim üçün də əzizdir. Bir insan, Vətənini sevən bir vətəndaş üçün onun doğma yurdu, torpağı haqqında xoş sözlərin deyilməsi, ecazkar təbiəti, tarixiliyi, həm də möhtəşəm inkişafı haqqında fikirləri əcnəbi qonaqların dilindən eşitmək fəxarət hissi doğurur. Yaxın günlərdə təsadüf nəticəsində Asiya qitəsindən – Hindistandan buraya qonaq gələn ailə ilə tanışlığımız zamanı bu fəxarət hissini bir daha yaşadıq. "Qafqaz Turizm" Məhdud Məsuliyyətli Cəmiyyətinin təşkilatçılığı ilə yurdumuza təşrif gətirən qonaqlarla Naxçıvan Turizm İnformasiya Mərkəzində görüşdük.

Adityya Şaltari həyat yoldaşı, əslən Honkonqdan olan Man Yu Çenqlə birlikdə Azərbaycanın bütün rayonlarını gəziblər, bir neçə gündür ki, Naxçıvanın da qonağıdırlar. Adityya Şaltari bizimlə söhbətində dedi:

– Naxçıvan çox gözəldir. Hələ 2014-cü ildə Hindistan Dövlət Televiziyasında "Dünyanın yaradılış yeri, Nuhun vətəni – Naxçıvan" adlı süjetə tamaşa edəndə buraya gəlməyə qərar verdim.

Dünyanın 25-dən çox ölkəsində səyahətdə olduğunu deyən müsahibim onu da bildirir ki, Azərbaycan çox sabit ölkədi, Naxçıvan isə xüsusi bir gözəlliyə sahib olmaqla bərabər, həm də dünyanın ən təhlükəsiz regionudur. Adətən, hansısa ölkəyə səyahət etməzdən əvvəl ora haqqında məlumatlar toplayıram. Buraya gəlməzdən əvvəl Naxçıvanın blokada şəraitində olması ilə bağlı faktlara da rast gəldim. Verilən məlumatlar heç də ürəkaçan deyildi. Düşünürəm ki, buranı təhlükəli, səyahət edilə bilməyəcək yer kimi qələmə verənlər elə bu xalqın düşmənləridir. Mən və həyat yoldaşım Nuhun vətənini necə olursa-olsun, görməyə qərar verdik. Və bu gün burada olmağımdan çox məmnunam. Deyilənlərin tam əksinə, sabit və çox gözəl yurdunuz var. Naxçıvanda müasir səviyyəli xidmət və qonaqpərvərliklə qarşılaşdıq. "Qafqaz Turizm" MMC-nin direktorunun qonağı olduq. Sabahı gün Ordubad rayonuna yollandıq. Ordubadda "Came", "Sərşəhər", "Mingis" məscidləri, Qeysəriyyə abidəsində milli dəyərləri əks etdirən nümunələrlə tanış olub Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyindəki və tanınmış şəxsiyyətlərin ev-muzeylərindəki eksponatlara baxdıq. Çox gözəl, ecazkar təbiətiniz, səmimi insanlarınız insana öz evindəki rahatlığı yaşadır. Hər kəs bizi evinə qonaq dəvət edir, hansısa bir restoranda, ya da çay evində olanda edilən xidmətin qarşılığında heç nə tələb olunmur, hər kəs "Qonağımız olun", – deyir.

Ordubad mətbəxini çox bəyəndiyini deyən Adityya Şaltari burada bişirilən dolmanın, bozpörtün, kababların dadına indiyə kimi gəzdiyi ölkələrdə rast gəlmədiyini bildirir.

Culfa rayonunun tarixi yerlərini gəzən qonaq deyir: – Əlincəqalada olarkən oranın tarixi haqqında məlumat əldə etdim və bu qədim qalanın dünəni ilə bu gününü əks etdirən fotoşəkillərə baxdım. Və düşündüm ki, dünyanı fəth edən bir sərkərdənin ordusunun qarşısında naxçıvanlılar 14 il dayanıb öz yurd-yuvalarını qoruyublar. Məğlubedilməzlik simvolu olan bu tarixi abidənin bərpa edilərək yenidən xalqa qaytarılması da elə bir vətənpərvərlik nümunəsidir. Buranın tarixi keçmişinə dəyər verən insanları var. Mən bir çox dövlətlərdə olmuşam. Sizə əminliklə deyə bilərəm ki, çox az yerdə qədimdən bu günə qalan köhnə, uçuq abidələr əvvəlki görkəminə qaytarılır və qorunub muzeyə çevrilir.

Burada ən çox diqqətimi çəkən isə dini tolerantlıq oldu. Yurdunuz islami dəyərlərlə zəngindir. Məscidləriniz çox gözəldir, onları da sərbəst şəkildə ziyarət etdim.

Dünyanın bir çox dövlətlərini gəzmişəm, amma ən böyük, iqtisadi gücü ilə öyünən ölkələrdə belə, muzey ziyarəti üçün mütləq ödəniş etməli olursan. Amma burada muzeylərin və tarixi abidələrin girişi pulsuzdur. Bu, turistlər və yerli sakinlər üçün cəlbedicidir. Onu da bildirim ki, bir çox ölkələrdə muzey bələdçiləri xarici dil bilmədiklərinə görə oranı ziyarət etmək heç də zövqverici olmur. Burada isə, kiçik bir məmləkətdə muzey bələdçilərindən oradakı eksponatlar haqqında ingilis dilində məlumat almaq imkanımız oldu. Bir sözlə, Naxçıvanda hər addımda rast gəldiyim mənzərələr bu elin insanlarına hörməti daha da dərinləşdirir. Haçadağın əfsanəsini dinləmək isə bir başqa cür gözəldir.

Şahbuzda füsunkar bir dünya, gözəl bir cənnət var. Onun adı Batabatdır. Burada olanda təbiətin gözəlliyi insanı sehrli dünyaya aparır. Üzən ada isə möcüzədir, – deyərdim. Ermənistanla sərhədin bir addımlığında olsa da, burada tam əminliklə gəzdik. Çünki Qafqazın ən güclü ordusunun Azərbaycan Ordusu olduğunu bilirdim. Şahbuzun "Badamlı"sının dadı damağımda qaldı. Öyrəndim ki, Naxçıvanda ərzaq məhsullarına olan tələbatın, demək olar ki, hamısı daxili istehsal hesabına ödənilir. Buna nail ola bilməyən güclü dövlətlər var dünyada.

Təbiətin sehrindən ayrılıb şəhərə qayıtdıq, gəzməli-görməli yerlərində, muzeylərində, Nuh Peyğəmbərin məzarüstü türbəsində, Naxçıvanqalada olduq. Saat Meydanında dünya mətbəxinin bütün nümunələri olsa da, biz yenə də Naxçıvan dolmasını yeməyə üstünlük verdik.

Naxçıvanda məni ən çox heyrətləndirən yerlərdən biri isə Duzdağdakı mağaralar oldu. Azərbaycanın hər yerindən, hətta dünyanın müxtəlif ölkələrindən buraya müalicə məqsədilə gələnlərin çox olduğunu öyrəndim. Mən ilk dəfə idi ki, Duzdağda olurdum. Bura, doğrudan da, hər kəs üçün bir nemətdir, sağlamlıq mənbəyidir. Bu yurd haqqında nə qədər danışsam, yenə azdır. Biz buradan heç vaxt yaddan çıxmayacaq təəssüratlarla qayıdacağıq. Bu qədim diyarın tarixi abidələrindən, gözəl təbiətindən həmvətənlərimə, dostlarıma da danışacağam.

Man Yu Çenqin dediklərindən:

– Hələ təyyarə Naxçıvan səmasında dövrə vuranda buranın gözəlliyinə heyran qaldım. İlahi, bir şəhər nə qədər səliqəli və gözəl olar. Bu qədim yurdun hər addımında bir gözəllik, bir sirr, bir tarix gördüm. Naxçıvanın təbiəti insanı xəyallar aləminə qərq edir, füsunkar gözəlliklərə heyran qalmaya bilmirsən. Burada xalqın keçmişinə işıq salan tarixi abidələr, mənəvi irsinizin qorunduğu mədəniyyət ocaqları, insana daxili rahatlıq bəxş edən təbiət guşələri, milli memarlıq elementlərinin bərq vurduğu müasir binalar, səliqə-sahmanı ilə gözoxşayan abad, geniş küçələr məni valeh etdi. Bir sözlə, Naxçıvanı gəzmək, şəfəqsaçan gözəlliklərə tamaşa etmək insanın ruhunu dincəldir, könlünü oxşayır. Gəzdiyim yerlərdə gördüklərim qədim torpaq barədə məndə böyük təəssürat oyatdı. Xüsusilə də buranın tarixi-dini məkanları – Əshabi-Kəhf diqqətimi çəkdi.

Diyarınızla tanışlıq zamanı buradakı sabitlik, qayda-qanun diqqətimi çəkdi. Əgər bir diyarda inkişaf gedirsə, o da, ilk növbədə, əmin-amanlıq sayəsində mümkün olur. Hər gün dünyanın bir sıra şəhərlərində insanlar qanunsuzluqla, özbaşınalıqla qarşılaşırlar. Lakin dünyanın xəritəsində bir nöqtə kimi görünən bu diyar dünyaya hökm edən dövlətlərin bacara bilmədiyi bir işi bacarıb. Burada diqqətimi çəkən bir məqamı xüsusilə vurğulamaq istəyirəm. Dediyim kimi, dünyanın 27 ölkəsində səyahətdə olmuşam. Diktatorluq, qanunu zorla qəbul etdirib sonra da bütün dünyaya demokratiyadan ağızdolusu danışan ölkələr görmüşəm. Azərbaycanda, eləcə də Naxçıvanda isə vəziyyət tamam başqadır. Hansı rayonda, lap ucqar kənddə belə olsan, orada dövlətinə, rəhbərinə minnətdarlıq hissi var insanlarda. Mən çox sevincliyəm ki, belə qanun-qaydanın – mədəni-əxlaqi keyfiyyətlərin hökm sürdüyü bir diyarın qonağıyam. Arzu edirəm ki, növbəti gəlişimdə Azərbaycanı və onun bu gözəl diyarını daha da yüksək zirvələrdə görüm.

**Ramiyyə ƏKBƏROVA**

## Naxçıvan Muxtar Respublikası üzrə 15 iyul 2019-cu il tarixə taxıl biçininin gedişinə dair məlumat

| S/№ | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 1035 | 825 | 2395 | 29,0 |
| 2. | Şərur rayonu | 4127 | 2827 | 9541 | 33,7 |
| 3. | Babək rayonu | 10610 | 8990 | 28006 | 31,2 |
| 4. | Ordubad rayonu | 1685 | 1685 | 4785 | 28,4 |
| 5. | Culfa rayonu | 6553 | 5417 | 15965 | 29,5 |
| 6. | Kəngərli rayonu | 5210 | 4481 | 13072 | 29,2 |
| 7. | Şahbuz rayonu | 1616 | 934 | 2426 | 26,0 |
| 8. | Sədərək rayonu | 2472 | 2472 | 8788 | 35,6 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **33308** | **27631** | **84978** | **30,8** |

*İdman xəbərləri*

## Karateçilərimiz beynəlxalq turnirdə 8 medal qazanıb




*Gürcüstan Respublikasının Batumi şəhərində karate üzrə "Batumi Open" beynəlxalq turniri keçirilib.*

Turnirdə 6 ölkənin 400 idmançısı tatami üzərinə çıxıb. Beynəlxalq turnirdə Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının 11 yetirməsi də mübarizə aparıb. İki gün davam edən turnirdə idmançılarımız kata və kumite yarışlarında 8 müxtəlif əyarlı medal qazanıblar.

Belə ki, 14-15 yaş qrupunda tatamiyə 57 kiloqram çəki dərəcəsində çıxan Vüsal Seyidov hər iki növdə qızıl medal qazanıb. 8-9 yaş qrupunda mübarizə aparan Rafiq Hüseynli isə iki çəki dərəcəsində (-38 və +38 kiloqram) bürünc medal qazanıb.

18-34 yaş qrupunda beynəlxalq turnirdən qazancımız 3 bürünc medal olub. Belə ki, -60 kiloqram çəki dərəcəsində Sərcan Məmmədov, -75 kiloqram çəki dərəcəsində Mirpaşa Kərimzadə və -84 kiloqram çəki dərəcəsində Aslan İsmayılov üçüncü yerlə kifayətləniblər.

Qızlar arasında 10-11 yaş qrupunda mübarizə aparan Nərgiz Həsənli (-40 kiloqram) də eyni uğuru təkrarlayıb və bürünc medal qazanıb.

Sonda qalib idmançılarımız təşkilatçılar tərəfindən mükafatlandırılıblar.

## Boks üzrə şəhər birinciliyi başa çatıb



*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində məktəblilərin yay tətilinin səmərəli təşkili məqsədilə yeniyetmə və gənclər arasında boks üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.*

Naxçıvan Muxtar Respublikası Boks Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən birincilikdə Naxçıvan şəhərinin idmançıları ilə yanaşı, Babək və Kəngərli rayonlarının idmançıları da iştirak ediblər. Beynəlxalq Boks Federasiyasının qaydalarına uyğun keçirilən yarışda 60-a yaxın dəri əlcək sahibi qüvvəsini sınayıb.

Gərgin mübarizə şəraitində keçən döyüşlərdə Rəhman Həsənli (20 kiloqram, Kəngərli), Tuncay Paşayev (22 kiloqram, Kəngərli), Əli Əbilov (26 kiloqram, Kəngərli), Nadir Əbilov (28 kiloqram, Kəngərli), Afiq Məmmədli (29 kiloqram, Naxçıvan), Sənan Əbilov (30 kiloqram, Kəngərli), Hüseyn İsmayılov (31 kiloqram, Naxçıvan), Turan Kərimsoy (32 kiloqram, Naxçıvan), İlkin Həsənov (34 kiloqram, Kəngərli), Ucar Musayev (35 kiloqram, Kəngərli), Əli Həsənov (36 kiloqram, Kəngərli), Elbrus Kərimli (37 kiloqram, Naxçıvan), Sinan Əbilov (38 kiloqram, Kəngərli), Asiman Məmmədzadə (40 kiloqram, Naxçıvan), Əli Quluzadə (42 kiloqram, Naxçıvan), Akif Həsənov (44 kiloqram, Naxçıvan), Nihat Quliyev (46 kiloqram, Kəngərli), Fuad Əhmədov (48 kiloqram, Naxçıvan), Şulan Əhmədov (52 kiloqram, Naxçıvan), Əfrəsiyat Həsənov (54 kiloqram, Naxçıvan), Ayxan Süleymanov (60 kiloqram, Naxçıvan), Şahhüseyn Şeyxov (63 kiloqram, Naxçıvan) və Qasım Murtuzayev (80 kiloqram, Naxçıvan) öz çəki dərəcələrində bütün rəqiblərini üstələyərək qalib adını qazanıblar.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılara təşkilatçıların diplomları təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Şərur rayonu, Xanlıqlar kənd sakini Təhməzov Əhməd Vəli oğlunun adına olan JN-0090 inventar nömrəli, 10218018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Quliyev Əli Abdulla oğlunun adına 8 fevral 2018-ci il tarixdə verilmiş 0900181062 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

### Bildiriş

"Təchizat T.V." MMC (VÖEN-0700317391) fəaliyyətini dayandırdığından ləğv olunur.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 475